# Naftalanda akademik Zərifə Əliyevanın xatirəsi anılıb

Naftalanda şəhər icra hakimiyyətinin və şəhər mərkəzi xəstəxanasının birgə təşkilatçılığı ilə akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.



Tədbirdə Naftalan ŞİH-in başçısı Vüqar Novruzov çıxış edərək yüksək elmi nailiyyətləri, xeyirxah və nəcib əməlləri ilə xalqımızın yaddaşında həmişəyaşarlıq qazanmış Əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətindən danışmışdır.

Sonra söz tədbir iştirakçılarına verilmişdir. Şəhər mərkəzi xəstəxanasının direktoru Samir Allahverdiyev çıxış edərək görkəmli alimin zəngin elmi irsindən, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlardan söhbət açmışdır.

Tədbirdə çıxış edən digər natiqlər də Zərifə xanımın şərəfli ömür yolunun, zəngin elmi fəaliyyətinin hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbi olduğunu qeyd etmişlər.

Sonda akademik Zərifə xanım Əliyevanın şərəfli həyat yolundan, elmi nailiyyətlərindən, ictimai xadim kimi əvəzsiz fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-29 aprel.- S.9.